www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-09 (1770) 15 may 2023-cü il



# Ulu Öndərin ideyaları Azərbaycan səhiyyəsinin ilhamverici qüvvəsidir

**“Təbabətin aktual problemləri - 2023” beynəlxalq konqresi Ümummilli Liderin 100 illiyinə həsr olunmuşdu**

səh. 2

## Prezident və ailə üzvləri Ümummilli Liderin məzarını ziyarət edib

səh. 2

## ATU və İnönü Universitetinin rektorları görüşüb

səh. 4

## Təmənnasız müalicə edilən imkansız xəstə kritik vəziyyətdən çıxıb

səh. 7



## Ulu Öndərin 100 illiyinə həsr olunmuş ədəbi-bədii gecə keçirilib

Filarmoniyada ATU tələbələrinin iştirakı ilə tədbir təşkil olunub

səh. 3

## İmtahan nəzarətçiləri təlimatlandırılıb

*Professor Sabir Əliyev: “Daxili nizam-intizam qaydalarına yüksək dərəcədə riayət edilməlidir”*

səh. 5

## Cəmiyyətin sütunu – ailə institutu

*15 May - Beynəlxalq Ailə Günü Azərbaycanda da geniş qeyd olunur*

səh. 7



## Tədris Cərrahiyyə Klinikasında ciddi dəyişikliklər aparılır

Klinikanın direktoru ATU-nun Böyük Elmi Şurasında hesabatla çıxış edib

səh. 6

# Prezident və ailə üzvləri Ümummilli Liderin məzarını ziyarət edib



Mayın 10-da müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü tamam oldu.

**Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Ulu Öndərin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəliblər.**

Burada fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoyub, Ulu Öndərin xatirəsini ehtiramla anıb.

Azərbaycan Respublikasının Dövlət Himni səslənib.

Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Ümummilli Liderin xatirəsini dərin hörmətlə yad ediblər.

Sonra dövlət başçısı, birinci xanım və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoyublar.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olunub.

**Mayın 10-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü tamam oldu.**

# Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi yad olunub



Bu münasibətlə Səhiyyə Nazirliyinin rəhbərliyi və kollektivi, Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Fəxri Xiyabana gələrək Ulu Öndər Heydər Əliyevin məzarı önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla yad edilib, məzarı önünə tər çiçəklər düzülüb.

Görkəmli dövlət və ictimai xadim Əziz Əliyevin, istedadlı həkim Tamerlan Əliyevin məzarları üzərinə də tər çiçəklər qoyulub.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan elminə və təhsilinə, bu sahədə çalışanlara, o cümlədən həkimlərə həmişə xüsusi diqqət və qayğı göstərirdi. Ölkəmizdə səhiyyənin inkişafı və tibbi kadrların hazırlanması məhz Ulu Öndərin adı ilə bağlıdır.

# Ulu Öndərin ideyaları Azərbaycan səhiyyəsinin ilhamverici qüvvəsidir

## “Təbabətin aktual problemləri - 2023” beynəlxalq konqresi Ümummilli Liderin 100 illiyinə həsr olunmuşdu




**Mayın 3-6-da Azərbaycan Tibb Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Təbabətin aktual problemləri - 2023” mövzusunda elmi-praktik beynəlxalq konqres keçirilib.**

Bir çox xarici ölkə nümayəndələrinin də qatıldığı konqresin iştirakçıları ilk öncə Ulu Öndərin universitetin foyesindəki büstünün önünə tər çiçəklər düzüblər.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən tarixi-sənədli videoçarx nümayiş olunub. Videoçarxda XX əsrin 70-ci və 90-cı illərində Heydər Əliyevin diqqət-qayğısı sayəsində ölkədə aparılan geniş quruculuq işlərindən və bütün sahələrdə olduğu kimi, səhiyyədə də baş verən yeniliklərdən, həmçinin yeni müasir tibb ocaqlarının yaradılmasından bəhs edilib.

Tədbiri açan səhiyyə naziri Teymur Musayev Ulu Öndərin zəngin və şərəfli ömür yolundan bəhs edərək bildirib ki, günü-gündən inkişaf edən müasir müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir: “Ulu Öndər bənzərsiz zəngin həyat yolu və çoxşaxəli fəaliyyəti ilə yalnız adını tarixə yazmayıb. O həm də dövlət müstəqilliyimizin möhkəmləndirilməsi tarixini, Azərbaycanın müxtəlif sferalarının, o cümlədən səhiyyənin inkişaf tarixini yazıb. Heydər Əliyevin 1993-cü ildə yenidən Azərbaycan rəhbərliyinə qayıdışından sonra ölkə səhiyyəsinin, həmçinin tibb elmi və tibb təhsili sisteminin inkişafının yeni mərhələsi başlandı. Ulu Öndər ölkədə hər bir sahənin inkişafı üçün mühüm təşəbbüslərlə çıxış edirdi, amma heç şübhəsiz ki, onun üçün əsas məsələ əhalinin sağlamlığının qorunması, tibbi xidmətin yüksək səviyyədə təşkili, Azərbaycan xalqının demoqrafik göstəricilərinin yaxşılaşması idi. Onun bilavasitə rəhbərliyi ilə ölkənin səhiyyə sistemində ardıcıl və məqsədyönlü işlər görüldü, islahatlar aparıldı. Ölkəmizdə səhiyyənin qanunvericilik bazasını gücləndirən bir sıra qanunlar işlənib hazırlandı və Milli Məclis tərəfindən qəbul edildi. Ulu Öndərin rəhbərliyi ilə bu sahədə bir çox qanunların qəbul edilməsi səhiyyəmizin müasir tələblər səviyyəsində yenilənməsinə və həm də insanların sağlamlığının etibarlı şəkildə qorunmasına xidmət edir”.

Nazir qeyd edib ki, xalqımıza böyük məhəbbətlə, sədaqətlə xidmət edən Ulu Öndərin amallarına sadiq qalan cənab İlham Əliyev insanların sağlamlığını prioritet məsələ kimi daim diqqət mərkəzində saxlayır: “Ölkəmizdə bu gün həyata keçirilən Dövlət proqramları, genişmiqyaslı tədbirlər xəstəliklərin profilaktikasına, əhalinin sağlamlığının qorunmasına, xalqımızın həyat səviyyəsinin yaxşılaşdırılmasına, orta ömür müddətinin uzanmasına xidmət edir. Yeni tikilən və əsaslı təmir olunan, ən müasir avadanlıqlarla təchiz edilən tibb mərkəzləri, tibb işçilərinin təkmilləşməsinə verilən diqqət Azərbaycan Prezidentinin əhalinin səhhətinin qorunmasına və gələcək nəsillərin sağlamlığına göstərdiyi qayğının parlaq təzahürüdür.

Bu gün biz səhiyyə işçiləri əminliklə deyə bilərik ki, Azərbaycan xalqının hər bir nümayəndəsinin sağlamlığının qorunması, o cümlədən xalqımızın demoqrafik göstəricilərinin yaxşılaşması hər zaman Ulu Öndərimizin diqqət mərkəzində idi. Onun prezidentliyi dövründə səhiyyəmizin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində çox böyük iş görüldü, tibb müəssisələrində təmir-tikinti işləri aparıldı, səhiyyə ocaqları yeni avadanlıq və cihazlarla təchiz edildi”.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli çıxışında vurğulayıb ki, Ulu Öndərin ölkəmizdə gördüyü işlər, xalqımız qarşısındakı əvəzsiz xidmətləri tarixin səhifələrinə qızıl hərflərlə həkk olunub: “Onun rəhbərliyə yenidən gəlişindən sonra müstəqil Azərbaycanda həm siyasi, həm də iqtisadi durum yüksələn xətt üzrə inkişaf etməyə başladı. Bu dərhal özünü ölkə səhiyyəsinin, tibb elmi və tibb təhsili sisteminin tərəqqisində büruzə verdi. Tezliklə Azərbaycan Tibb Universitetinin beynəlxalq əlaqələri genişləndi. Onu da qeyd etmək lazımdır ki, ötən əsrin 90-cı illərinin əvvəllərində ATU-nun tədris bazalarının çatışmaması tibb təhsilinin gedişinə mənfi təsir göstərirdi. Bunu nəzərə alan Ulu Öndər bünövrəsi vaxtilə onun özü tərəfindən qoyulmuş 11 mərtəbəli tədris binasının tikintisinin sona çatdırılması üçün vəsait ayırdı. 1998-ci ildə bu tədris binasının açılışında şəxsən iştirak edən Ümummilli Lider universitetin tibb işçilərinə və tələbələrinə sanki qol-qanad verdi. Əksər nəzəri kafedralar, ATU-nun kitabxanası, informatika mərkəzi, hərbi kafedra, “Təbib” nəşriyyatı, internet mərkəzi bu yeni tədris binasında yerləşdirildi. Bu, müəllimlərə, həkimlərə, tələbələrə verilən ən böyük hədiyyə idi. Ulu Öndər 2000-ci ildə yenidən universitetə gəldi və burada 500 yerlik unikal akt zalının açılışında, eləcə də ATU-nun yaradılmasının 70 illik yubiley mərasimində iştirak etdi. Yenicə istifadəyə verilmiş akt zalının tribunasından birinci olaraq Ulu Öndərin tarixi nitqi səsləndi. Universitetimizin professor-müəllim heyətinin nümayəndələri elmi və pedaqoji fəaliyyətlərində əldə etdikləri nailiyyətlərə görə bir sıra beynəlxalq qurumlara üzv seçildilər. Ulu Öndərin göstərişi ilə 2000-ci ildə ATU-nun nəzdində strateji əhəmiyyət kəsb edən Hərbi tibb fakültəsi yaradıldı. Dahi rəhbərin qayğısı sayəsində ATU Qara Dəniz Hövzəsi Ətrafı Ölkələrin Ali Məktəbləri Birliyinin, Beynəlxalq Ali Məktəblər Assosiasiyasının, Avropa Universitetlər Assosiasiyasının tamhüquqlu üzvü seçildi. Ümummilli Liderin diqqət və qayğısı nəticəsində 2002-ci ildə Azərbaycan Tibb Universitetinin nəzdində ilk dəfə olaraq Stomatoloji Klinika təşkil edildi və bununla da ATU-nun öz klinikalarının yaradılmasının bünövrəsi qoyuldu”.



Sözünə davam edən rektor əlavə edib ki, Ulu Öndərin yolunu uğurla davam etdirən cənab İlham Əliyev onun ideyalarını gündən-günə genişləndirir, bütün zamanların dayağına, istinad nöqtəsinə çevirir: “2006-cı ildə Azərbaycan Prezidentinin qayğısı sayəsində ATU-nun Onkoloji Klinikasının təşkilinə başlanıldı və bu proses 2007-ci ildə başa çatdırıldı. Prezidentimizin müvafiq sərəncamları ilə öz unikallığı və möhtəşəmliyi ilə seçilən Tədris Terapevtik (2010-cu il) və Tədris Cərrahiyyə Klinikaları (2013-cü il) yaradıldı. Hər iki klinikanın açılış mərasimi Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə keçirildi. Bu gün fəxr hissi ilə deyə bilərəm ki, müasir Azərbaycanın memarı olan Ulu Öndərin ideyaları ölkənin tibb təhsili sisteminin və ölkə səhiyyəsinin ilhamverici qüvvəsidir”.

Daha sonra Türkiyənin İnönü Universitetinin Qaraciyər Transplantasiyası İnstitutunun direktoru, professor Sezai Yılmaz, Pakistanın Rifah Universitetindən Beynəlxalq Tibb Təhsili Konfransının prezidenti, professor Azhar Raşid, Rusiya Terapevtlərinin Elmi Tibbi Cəmiyyətinin prezidenti, akademik Anatoli Martınov, Stenford Universitetinin Lucile Packard Uşaq xəstəxanasının təmsilçisi, dosent Teymur Nəsirov və başqaları öz çıxışlarında qeyd ediblər ki, Azərbaycanın bu gün dünyada özünəməxsus yer tutmasında dahi Heydər Əliyevin müstəsna rolu var. Onun Azərbaycan xalqı qarşısında xidmətləri böyükdür və bunları saymaqla qurtarmaz. Çünki o dahi şəxsiyyətin siyasəti dünyəvi ideyalara söykənir.

Açılış mərasimindən sonra “Təbabətin aktual problemləri – 2023” mövzusunda beynəlxalq elmi-praktik konqres öz işini 4 gün ərzində tibbin müxtəlif sahələri üzrə plenar sessiyalarla davam etdirib.

**M.ƏLƏKBƏRLİ**

# Ulu Öndərin 100 illiyinə həsr olunmuş ədəbi-bədii gecə keçirilib

## Filarmoniyada ATU tələbələrinin iştirakı ilə tədbir təşkil olunub



**Azərbaycan Respublikası Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı, Azərbaycan Tibb Universitetinin əməkdaşları və tələbələrinin iştirakı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş ədəbi-bədii gecə keçirilib.**

Azərbaycan Dövlət Akademik Filarmoniyasında təşkil olunan gecədə ATU tələbələrinin ifası və müşayiəti ilə müxtəlif xalq mahnıları səsləndirilib, Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən videoçarxlar təqdim olunub.

Tədbirdə səhiyyə naziri Teymur Musayev, Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik Əhliman Əmiraslanov, ATU-nun rektoru, professor Gəray Gəraybəyli, sabiq səhiyyə naziri Oqtay Şirəliyev, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Rzayev, TƏBİB-in rəhbəri Vüqar Qurbanov, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini Aqil Dadaşov, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru Nazim Qasımov və digər dövlət qurumlarının rəhbər şəxsləri, tanınmış ictimai-siyasi xadimlər iştirak ediblər.



# "Azərbaycan mənim ürəyimdir, nəfəsimdir, həyatımdır"





**Azərbaycan Tibb Universitetində Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Azərbaycan mənim ürəyimdir, nəfəsimdir, həyatımdır" adlı ədəbi-bədii gecə keçirilib.**

Tədbirin aparıcıları Əli Əliyev və Müalicə-profilaktika fakültəsinin I kurs tələbəsi Şəbnəm Abdullazadə Vətənə sevgisi, dövlətə sadiqliyi ilə hər bir kəsə örnək olan, zəkası və istedadı ilə dünyada tanınan, bütün ömrünü doğma xalqının xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr edən dahi şəxsiyyət Heydər Əliyev haqqında ən səmimi duyğularını tamaşaçılarla bölüşüblər.

Bildirilib ki, Ulu Öndərimiz Azərbaycanın adı çəkilən şeir və musiqiləri böyük həvəslə dinləyərdi. Belə musiqilərdən biri də xalq şairi Nəbi Xəzrinin sözlərinə dünya şöhrətli sənətkarımız Müslüm Maqomayevin bəstələdiyi "Azərbaycan" mahnısıdır. Ulu Öndərin bu mahnı haqqında səsləndirdiyi fikirlərin öz əksini tapdığı videoçarx nümayiş olunduqdan sonra həmin mahnını Müalicə-profilaktika fakültəsinin III kurs tələbəsi Nicat Əhmədov ifa edib.

Ulu Öndər Azərbaycan Tibb Universitetinə, ümumiyyətlə bütün səhiyyə işçilərinə həmişə diqqət və qayğı ilə yanaşıb. Onun universitetimizə hər gəlişi böyük coşqu ilə qarşılanardı. O unudulmaz görüşlərin təəssüratları bu gün də ehtiramla xatırlanır. Ümummilli Liderimizin 100 illik yubiley tədbirlərinin universitetimizdə yüksək səviyyədə qeyd olunması da çoxminli kollektivimizin Ulu Öndərimizə sonsuz məhəbbətinin bariz nümunəsidir. Təsadüfi deyil ki, ədəbi-bədii gecədə ifa olunan mahnıların əksəriyyəti Ulu Öndərin sevdiyi mahnılar idi. Belə sevilən mahnılardan "Alagöz" - Müalicə-profilaktika fakültəsinin III kurs tələbəsi Rafiq Aslanov, "Ana" - Müalicə-profilaktika fakültəsinin IV kurs tələbəsi Minayə Yusifova, "Küçələrə su səpmişəm" - Müalicə-profilaktika fakültəsinin VI kurs tələbəsi, əslən Cənubi Azərbaycandan olan Laçın Mehdipur, "Ey Vətən" - Müalicə-profilaktika fakültəsinin II kurs tələbəsi Məryəm Nayıbova və "Ömür deyir qocalmışam, ürək deyir yaşa hələ" - Müalicə-profilaktika fakültəsinin III kurs tələbəsi Nihad Salahlı tərəfindən məharətlə ifa edilib.

Hərbi tibb fakültəsinin VI kurs tələbəsi Nicat Nəsibli, Əczaçılıq fakültəsinin II kurs tələbəsi Sona Əkbərli və Müalicə-profilaktika fakültəsinin IV kurs tələbəsi Ülkər Gülmalıyevanın ifaları, eləcə də universitetin "Şəfa" xalq çalğı alətləri ansamblının və "Çinar" rəqs ansamblının çıxışları da tamaşaçı alqışları ilə qarşılanıb.

Tədbirdə Ulu Öndərin mədəniyyət və incəsənət xadimləri ilə görüşlərini, qeyri-rəsmi çıxışlarını, ömür-gün yoldaşı Zərifə xanım Əliyevaya böyük sevgisini əks etdirən lent yazıları tamaşaçılarda duyğulu anlar yaşadıb.



Ədəbi-bədii gecə "Azərbaycan" şeirinin Ümummilli Liderimiz Heydər Əliyevin öz dilindən səslənməsi və bu bənzərsiz qiraətin tamaşaçı alqışları ilə müşayiət olunması ilə başa çatıb.

Tədbirdə universitetin tələbələri və professor-müəllim heyəti, rəsmi qurumların, ictimai təşkilatların nümayəndələri iştirak ediblər.

### Heydər Əliyev-100

# ATU-da Ümummilli Liderə həsr olunmuş çoxsaylı tədbirlər keçirilib

**Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti, İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) birgə təşkilatçılığı və "Uptodate in Medicine"nin texniki dəstəyi ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Təbabətin aktual problemləri" beynəlxalq elmi-praktik konqresin "İctimai səhiyyə və peşə xəstəlikləri" üzrə konfransı keçirilib.**

Açılış nitqi ilə çıxış edən İSİM-in direktoru Qəhrəman Haqverdiyev "Əhalinin sağlamlığının qorunmasında ictimai səhiyyənin gördüyü işlər", ATU-nun İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva "İctimai səhiyyə mütəxəssislərinin hazırlanması üzrə fakültədə görülən işlər", Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, dosent Şəhla Balayeva "Uşaqların sağlamlığının qorunması sahəsində qanunvericilik və Azərbaycan Respublikasında həyata keçirilən tədbirlər" haqqında məlumat veriblər.

Konfransın "Qeyri-infeksion və infeksion xəstəliklərə nəzarət və onun profilaktikası" sessiyasında Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının dosentləri Şəhla Balayeva, Sədaqət Həsənova, Zöhrə İsmayılova, Nərminə Cəfərzadə, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının dosenti Fərəh Baxışlı, Qidalanma və tibbi ekologiya kafedrasının assistenti Avaxanum Vəlibəyova, İSİM-in əməkdaşları Şəhla İsmayılova, Səbinə Babazadə, Nabil Seyidov, Tofiq Musayev, Zümrüd Kazımova, Könül İsmayılova, "Peşə xəstəlikləri" sessiyasında isə Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının dosentləri Səyyad Gürzəliyev, Minayə Nəbiyeva, V.Axundov adına Elmi-tədqiqat Tibbi Profilaktika İnstitutunun əməkdaşları - tibb üzrə fəlsəfə doktoru Sevda Xəlilova və dosent Lalə Rüstəmova aktual mövzularda çıxışlar ediblər.

Konfransın sonunda tədbir iştirakçılarının sualları cavablandırılıb və fikir mübadiləsi aparılıb.

* * *

**"Təbabətin aktual problemləri" beynəlxalq konqresinin əczaçılıq bölməsi üzrə plenar iclası keçirilib.**

İclasda Əczaçılıq fakültəsinin ixtisas kafedralarında aparılan elmi-tədqiqat işlərinin nəticələrinə dair 12 məruzə dinlənilib. Müasir dərman dizaynında kompüter proqramlarının əhəmiyyəti, ölkəmizin zəngin florasının tədqiqinə dair aparılan işlər maraqla qarşılanıb. Yeni dərman vasitələrinin yaradılması istiqamətində yerli dərman xammallarının istifadəsinə həsr olunmuş fitokimyəvi tədqiqatlar üzrə bir neçə iş dinlənilib. Bundan başqa, əczaçılıq texnologiyası, əczaçılıq analizi, həmçinin də bioloji fəal qida əlavələrinin işlənilib hazırlanması və marketinqi üzrə elmi-tədqiqat işləri müzakirə edilib. Müzakirələrdə konqresin işində iştirak üçün qeydiyyatdan keçmiş universitet əməkdaşları, o cümlədən fakültənin ixtisas kafedralarının professor-müəllim heyəti, doktorantlar və dissertantlar iştirak edib.

Plenar iclasın yekununda Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli, həmçinin plenar iclasın sədrləri, professorlar Tahir Süleymanov, Eldar Qarayev və Cavanşir İsayev çıxış edərək konqresin, o cümlədən, əczaçılıq bölməsinin işinin müvəffəqiyyətlə keçdiyini vurğulayıblar.

* * *

**Mayın 8-də İctimai fənlər kafedrasında Ulu Öndərin 100 illiyi münasibətilə elmi-praktik konfrans keçirilib.**

Kafedra müdiri, professor Qoşqar Əliyev bildirib ki, Ümummilli Liderin 100 illik yubileyi ilə əlaqədar respublikamızın hər yerində, o cümlədən Azərbaycan Tibb Universitetində çoxsaylı tədbirlər keçirilməkdədir.

Daha sonra professor Q.Əliyev "Heydər Əliyev dünya miqyaslı siyasətçidir", kafedranın dosentləri Cavanşir Sadıqov "Heydər Əliyevin 20 Yanvar faciəsinə qarşı qətiyyətli çıxışı", Fəridə Qəniyeva "Heydər Əliyevin ümumbəşəri ideyalara söykənən multikulturalizm siyasəti", Gülnarə Səfərova "Azərbaycan qadını və dövlətçiliyimiz", Elbrus Sadıqov "Böyük Öndər Heydər Əliyev və hüquqi dövlət quruculuğu" mövzularında məruzələr oxuyublar.

Elmi-praktik konfransda universitetin Əsaslı kitabxanasının kollektivi və digər kafedraların əməkdaşları da iştirak ediblər.

* * *

**Yoluxucu xəstəliklər kafedrasında dahi şəxsiyyət Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Mən fəxr edirəm ki, azərbaycanlıyam" adlı tədbir keçirilib. Tədbiri kafedranın müdiri, dosent Cəlal İsayev açaraq, Ulu Öndərin həyat və fəaliyyəti haqqında geniş məlumat verib.**

Tədbirdə kafedranın dosentləri Ələsgər Vəliyev, Mirzamin Muxtarov, Elza Orucova, Gülnarə İbrahimova, Sulduz Əhmədova və Vüqar Cavadzadə Ümummilli Liderin xalqımız və dövlətçiliyimiz qarşısındakı tarixi fəaliyyəti və misilsiz xidmətləri barədə geniş söhbət açıblar. Həmçinin Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən video çarxlar nümayiş olunub.

Tədbirdə İctimai səhiyyə fakültəsinin həmkarlar təşkilatının sədri, dosent Səidə Hacıyeva və akademik məsləhətçi, assistent Nailə Məmmədova da iştirak ediblər.

## ATU və İnönü Universitetinin rektorları görüşüb



**“Zəlzələdən sonra biz indiyədək görmədiyimiz ağır günləri yaşadıq. On minlərlə insan ev-eşiksiz qaldı, günlərlə aclıq keçirdi. Amma ən çətini, əzizlərimizi itirməyimiz idi”. Bu sözləri Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ilə görüşündə İnönü Universitetinin rektoru, professor Sezai Yılmaz bildirib.**

“Təbabətin aktual problemləri – 2023” beynəlxalq elmi-praktik konqresinin fəxri qonağı olan professor Sezai Yılmaz həmin günlərdə Türkiyənin yanında olan, ilk köməyə gələn Azərbaycan xalqına və rəhbərliyinə təşəkkürünü çatdırıb. Qonaq, həmçinin ATU-da keçirilən “Təbabətin aktual problemləri – 2023” beynəlxalq elmi-praktik konqresinin əhəmiyyətini vurğulayaraq tədbirin işinə uğurlar arzulayıb.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli qardaş Türkiyənin bu ağır günləri geridə qoyacağına, türk xalqının tezliklə gücünü toplayıb ayağa qalxacağına inandığını bildirib. O, ATU üçün əlamətdar olan gündə Bakıda olduğuna və tədbirdə iştirakına görə həmkarına təşəkkürünü bildirib.

Görüşdə ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev, Mətbuat xidmətinin rəhbəri Günel Aslanova iştirak edirdilər.

## Pakistanlı qonaqlarla beynəlxalq tədbirə hazırlıq işləri müzakirə olunub

**Bu ilin oktyabrında Bakıda keçiriləcək “ICME-2023” Tibb Təhsili üzrə Beynəlxalq Konfrans bu sahədəki yeniliklərlə bağlı tibb ictimaiyyətinin məlumatlandırılması və təcrübə mübadiləsinin aparılması baxımından böyük əhəmiyyət daşıyır. Bu fikri Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ICME konfransının prezidenti, professor, general Azhar Rashid ilə görüşündə səsləndirib.**

Rektor G.Gəraybəyli bu konfransın müxtəlif ölkələrin tibb təhsili verən ali məktəbləri arasında əlaqələrin yaradılması və möhkəmləndirilməsinə xidmət edəcəyini vurğulayıb. O, tədbirin yüksək səviyyədə təşkilinə nail olmaq üçün artıq təşkilat komitələrinin fəaliyyətə başladığını da bildirib.

ICME prezidenti, Pakistanın Riphah Beynəlxalq Universitetinin Sağlamlıq və tibb elmləri fakültəsinin dekanı Azhar Rashid də öz növbəsində Bakı toplantısının böyük uğurla keçəcəyindən əminliyini ifadə edib.

Sonra Riphah Beynəlxalq Universiteti nümayəndə heyətinin ATU-nun “ICME-2023 Bakı” toplantısının təşkilat komitəsinin üzvləri ilə görüşü keçirilib. Tərəflər beynəlxalq tədbirin təşkili ilə bağlı vacib məsələləri müzakirə ediblər.



Qeyd edək ki, ICME konfransının əsas məqsədi tibb təhsili üzrə ekspertlər və pedaqoqları bir araya gətirməklə bu sahədəki son yenilikləri və standartları müzakirə etmək, təcrübə mübadiləsinin aparılması və bu sahədə beynəlxalq platforma yaratmaqdan ibarətdir.

Nüfuzlu tədbir bu il 7-10 oktyabr tarixlərində Azərbaycan Tibb Universiteti və Riphah Beynəlxalq Universitetinin birgə təşkilatçılığı ilə Bakıda baş tutacaq.

## Rektor Gəray Gəraybəyli ABŞ-dan gəlmiş fəxri qonağı qəbul edib

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli “Təbabətin aktual problemləri – 2023” beynəlxalq elmi-praktik konqresinin fəxri qonağı - Stenford Universiteti (ABŞ) Lucile Packard Uşaq Xəstəxanasının uşaq kardiocərrahı, dosent Teymur Nəsirovla görüşüb.**



Görüş zamanı qonağa son illər ATU-da aparılan islahatlar, yenilənmiş tədris proqramı, universitetdə tələbələrin keyfiyyətli təhsili və asudə vaxtlarını keçirməsi üçün yaradılan şərait haqqında ətraflı məlumat verilib. Uzun illərdir Bakıda olmadığını bildirən T.Nəsirov bu müddət ərzində paytaxtın çox gözəlləşməsindən, ATU-nun beynəlxalq standartlara uyğun fəaliyyətindən məmnunluqla danışıb.

Görüşdə ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev, Mətbuat xidmətinin rəhbəri Günel Aslanova iştirak ediblər.

## ATU-nun rektoru rusiyalı akademiklə tədbirin yekunlarını müzakirə edib

**Bakıda “Təbabətin aktual problemləri - 2023” mövzusunda keçirilən beynəlxalq elmi-praktik konqres müxtəlif elmi qurumlar arasında qarşılıqlı əlaqələrin genişləndirilməsi, təcrübə mübadiləsi baxımından böyük önəm daşıyır. Bu fikir Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin Rusiya Terapevtlərinin Elmi Tibbi Cəmiyyətinin prezidenti, akademik Anatoli Martınovla görüşündə vurğulanıb.**



Professor Gəray Gəraybəyli bu il Azərbaycanda “Heydər Əliyev İli” çərçivəsində genişmiqyaslı tədbirlərin keçirildiyini və sözügedən konqresin də bu qəbildən əhəmiyyətli bir toplantı olduğunu qeyd edib. O, qonaqlara Azərbaycan xalqı tərəfindən daim hörmətlə anılan Ulu Öndər Heydər Əliyevin ölkəmizdə tibb təhsilinin inkişafı, Tibb Universitetinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində gördüyü işlər haqda məlumat verib: “Ümummilli Liderin təhsil sahəsinə xüsusi qayğısı ATU-dan da yan keçməyib. Bunun bariz nümunəsi kimi Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müstəqillik illərində iki dəfə universitetə gəlməsini, tədris binasının açılışında iştirak etməsini, həmçinin Azərbaycan Tibb Universitetinin 70 illik yubileyində kollektivlə görüşünü göstərmək olar”.

Rusiya Elmlər Akademiyasının həqiqi üzvü, akademik Anatoli Martınov bu tədbirə dəvət üçün təşəkkürünü bildirərək elmi-praktiki konqresin qarşılıqlı əlaqələrin genişləndirilməsi, təcrübə mübadiləsi baxımından çox əhəmiyyətli olduğunu bildirib. Qeyd edib ki, bu kimi tədbirlər Azərbaycan Tibb Universiteti ilə müxtəlif ölkələrin, o cümlədən Rusiyanın elmi-tədris institutları arasında münasibətlərin güclənməsinə, həm dostluq, həm də elmi əlaqələrin möhkəmlənməsinə gətirib çıxarır.

Sonda görüş iştirakçılarına xatirə hədiyyələri təqdim olunub. Görüşdə ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov və Mətbuat xidmətinin rəhbəri Günel Aslanova iştirak ediblər.

**Mayın 6-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar olaraq, Səhiyyə Nazirliyi və Azərbaycan Tibb Universitetinin təşkilatçılığı və Azərbaycan Pediatrlar Assosiasiyasının dəstəyi ilə “Holiday İnn” hotelində beynəlxalq elmi-praktik konqres keçirilib.**

## ATU-nun təşkilatçılığı ilə beynəlxalq elmi-praktik konqres keçirilib

Konqresdə ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov giriş sözü ilə çıxış edib. Bildirib ki, mayın 3-dən başlayan beynəlxalq tədbirdə dövlət rəsmiləri ilə yanaşı, 11 ölkənin nümayəndələri də iştirak edib: “Tibb Universitetinin tarixində ilk dəfə belə beynəlxalq səviyyəli konqresin keçirilməsi onu göstərir ki, universitetimiz dünya universitetləri sırasına inteqrasiya olunur.

Ulu Öndər Heydər Əliyev hakimiyyəti dövründə Azərbaycan səhiyyəsinin inkişafına böyük töhfələr verib. Səhiyyəmizin inkişafında 1969-cu ildən etibarən yüksək sıçrayış nəzərə çarpmağa başlayıb. Həmin vaxtadək Sovetlər Birliyinin tanınmış ali təhsil ocaqlarında 50-ə yaxın gəncimiz təhsil alırdısa, Ulu Öndərin ölkəmizə rəhbərliyi zamanı bu say 1500-ü keçmişdi. Onların arasında tibb təhsili alan gənclərimiz də var idi.

Burada maraqlı məruzələr dinləniləcək. Bizim xaricdən qonaqlarımız da var. Böyük Britaniyadan dostum Andreas Petropoulos da konqresə qatılıb və hesab edirəm ki, onun prezentasiyası da sizdə maraq doğuracaq.

7 il öncə Tibb Universiteti dünyanın 14 min universiteti arasında 11 mininci yerlərdə idi. Bu gün universitetimiz 5 mininci pilləyə qədər irəliləyib. Bu, olduqca böyük nailiyyətdir”.

ATU-nun Allerqologiya və immunologiya kafedrasının müdiri, əməkdar elm xadimi, Azərbaycan Pediatrlar Assosiasiyasının fəxri vitse-prezidenti, professor Lalə Allahverdiyeva da konqresin əhəmiyyətindən danışıb. Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konqresdə pediatriya və neonatologiyada yeniliklərə geniş şəkildə toxunulacağını qeyd edib. O, Ulu Öndərin Azərbaycanın səhiyyə və elminin inkişafında göstərdiyi misilsiz xidmətlərdən, uşaqlara göstərdiyi qayğılardan söhbət açıb və “Postkovid sindromlu xəstələrin reabilitasiyasının əsas istiqamətləri” mövzusunda çıxış edib.

Konqresdə pediatriya ilə bağlı maraqlı məruzələr səsləndirilib. O cümlədən Böyük Britaniyadan A.Petropoulos “Pediatrik onkoloji xəstəliklərdən qurtulmuş pasiyentlərdə kardioloji problemlərə yanaşma” mövzusunda çıxış edib.

Konqres zamanı tanınmış əcnəbi mütəxəssislər onlayn məruzələr təqdim ediblər. Onlardan Rusiya Pediatrlar İttifaqının prezidenti, professor Leyla Namazova-Baranova, ABŞ-dan professor Çandra Rammamorti, Skott Osborn Gutrie, Cozef Haddadın məruzələri maraqla qarşılanıb.

## Dağıstanlı və özbəkistanlı qonaqlar universitetimizdə olub



**Bu günlərdə dünyanın müxtəlif ölkələrindən qonaqlara qapılarını açan Azərbaycan Tibb Universitetində Rusiya Federasiyasının Dağıstan Dövlət Tibb Universiteti və Özbəkistanın Buxara Dövlət Tibb İnstitutunun nümayəndə heyətləri ilə görüş keçirilib.**

Görüşdə çıxış edən ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov qonaqlara ölkəmizdə tibb üzrə ali təhsilin strukturu, universitetin tarixi və fəaliyyəti haqqında məlumat verib: “Azərbaycan Tibb Universiteti 1930-cu ildə Bakı Dövlət Universitetinin Tibb fakültəsinin bazası əsasında yaradılıb. ATU-nun hazırda mövcud olan 4 klinikası ilə yanaşı, 6 tədris binası, inzibati binası, 1700 yerlik 6 tələbə yataqxanası var. Təkcə 11 mərtəbəli müasir tipli tədris binası 2500 tələbəni qəbul etmək imkanına malikdir. Burada universitetin bir sıra nəzəri kafedraları, internet mərkəzi, 1 milyona yaxın kitab ehtiyatı olan kitabxanası fəaliyyət göstərir. Universitetimizin 3 ixtisası Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyin akkreditasiyasını keçib. Xarici tələbə sayına görə də universitetimiz ölkədə birinci yerdədir”. R.Bəylərov qonaqlara Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbirdə iştirak etdiklərinə görə təşəkkürünü bildirib.

Dağıstan Dövlət Tibb Universitetinin Elmi işlər üzrə prorektoru Naidə Mollayeva dəvət üçün təşəkkürünü bildirərək, bu əhəmiyyətli tədbirdə iştirak etməkdən məmnun olduqlarını çatdırıb. Qonaq təmsil etdiyi ali təhsil müəssisəsi haqqında məlumat verərək ATU ilə qarşılıqlı əlaqələrin inkişafında maraqlı olduqlarını bildirib.

Görüşdə Dağıstan Dövlət Tibb Universitetinin Strateji inkişaf üzrə prorektoru Cəmilə Ömərova, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Səcidə Hacəliyeva, Buxara Dövlət Tibb İnstitutunun Gənclərlə iş, maarifləndirmə və mənəviyyat üzrə birinci prorektoru Zübeydə Bəhranova və Stomatologiya fakültəsinin dekan müavini Mamura Afakova, həmçinin ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Həsənov, Mətbuat xidmətinin rəhbəri Günel Aslanova iştirak edirdilər.

Görüşün sonunda qonaqlara xatirə hədiyyələri təqdim olunub. Qeyd edək ki, nümayəndə heyətinin üzvləri ATU-nun Tədris Cərrahiyyə Klinikasını da ziyarət edərək burada yaradılan şəraitlə tanış olublar.

# Ulu Öndər Ana dilimizə böyük sevgiylə yanaşırdı

## Ümummilli Liderin 100 illiyi ilə əlaqədar ATU-da tələbələrlə görüş təşkil olunub

**Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Azərbaycan Tibb Universitetində müxtəlif tədbirlər keçirilməkdə davam edir. Belə tədbirlərdən biri universitet rəhbərliyi, fakültə dekanları ilə tələbələrin görüşü formatında təşkil olunub. Tədbiri ATU-nun Müalicə və tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev açıb.**



O, Ulu Öndərin həyat və fəaliyyəti ilə bağlı tədbir iştirakçılarına geniş məlumat verib. İstər sovet dövründə, istərsə də Azərbaycan müstəqillik qazandıqdan sonra Ümummilli liderin dövlətçiliyin qorunması və möhkəmləndirilməsindəki misilsiz xidmətlərindən söhbət açıb, Ana dilimizin inkişafı istiqamətində gördüyü işləri diqqətə çatdırıb: "Ulu Öndər Heydər Əliyevin və akademik Zərifə Əliyevanın 100 illik yubileyləri ilə əlaqədar olaraq, universitetimizdə beynəlxalq səviyyəli konfranslar, simpoziumlar, müxtəlif tədbirlər keçirilib və bu gün də davam etməkdədir. Əsas məqsəd Ulu Öndərin və onun ömür-gün yoldaşının örnək həyat və fəaliyyətlərinin gələcəyimiz olan gənclərimizin – tələbələrimizin diqqətinə çatdırılmasından ibarətdir. Bilirsiniz ki, Azərbaycan dövlətçiliyinin inkişafı və möhkəmləndirilməsində Ulu Öndərin əvəzsiz xidmətləri olub. O, 1969-cu ildə Mərkəzi Komitənin Plenumunda Azərbaycan Mərkəzi Komitəsinə Birinci katib seçildi. Fəaliyyətə başlamasından qısa müddət sonra Azərbaycanda hər sahədə böyük dəyişikliklərin şahidi olduq. Yaxşı xatirimdədir, Bakı Dövlət Universitetinin 50 illik yubileyi keçirilirdi. Həmin tədbirdə Ulu Öndərin Ana dilində geniş, məzmunlu və yaddaqalan çıxışı oldu. İlk dəfə Azərbaycan Mərkəzi Komitəsinin Birinci katibi səviyyəsində Ana dilində edilmiş çıxış o dövrün ziyalıları arasında böyük maraqla qarşılandı və rezonansa səbəb oldu. Onun dövründə qəbul edilmiş qərarlar iqtisadiyyat, sənaye, kənd təsərrüfatı, tibb, təhsil, incəsənət və digər bütün sahələrin inkişafına böyük təkan verdi. Məhz Ulu Öndərin atdığı addımlar nəticəsində Azərbaycan hər sahədə İttifaq səviyyəsində öndə görünməyə başladı. Azərbaycan 13 il ardıcıl olaraq, Keçici Qırmızı Bayraqla təltif olundu".

Professor S.Əliyev milli kadrların hazırlanmasında, hərb sahəsinin inkişafında, neft kontraktlarının bağlanmasında Ümummilli liderin həyata keçirdiyi uzaqgörən siyasətə toxunaraq bildirib ki, ölkəmizdə elm və tərəqqinin indiki səviyyəyə çatmasında onun böyük rolu olub: "Xalqımızın hərtərəfli inkişafı üçün bütün güc-qüvvəsini səfərbər etmişdi. Universitetimizin tədris klinikalarının inşa edilməsi də məhz Ulu Öndərin adı ilə bağlıdır".

Prorektor ölkə başçısı İlham Əliyevin Heydər Əliyev məktəbinin ən layiqli davamçısı olduğunu, onun əsasını qoyduğu siyasəti uğurla davam etdirdiyini diqqətə çatdırıb. Eləcə də Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətindən, 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın rəhbərliyi ilə qazandığımız qələbədən, Azərbaycanın dünya ölkələri içərisində nüfuzlu bir dövlətə çevrilməsindən bəhs edib.

Sonra III Daxili xəstəliklər kafedrasının dosenti Nağdəli Zamanov "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" mövzusunda çıxış edib. Bildirib ki, bu barədə 4 cildlik monoqrafiya yazmaq onun nəsibi olub. 63 fəsil və yarımfəsildən ibarət olan bu monoqrafiya universitetimizin kitabxana fondunda var və Ulu Öndərin nitq mədəniyyətinə həsr olunub: "Heydər Əliyevin bizlərə çıxış, bəyanat və nitqlərinin toplandığı 46 cilddən çox əsər yadigar qalıb. Türk dünyasının liderlərindən olan Rəcəb Tayib Ərdoğan, cənab Prezident İlham Əliyev və digər türk dövlətlərinin liderləri tərəfindən Ulu Öndərin nitqləri əsasında hazırlanan çıxışlar vasitəsi ilə böyük arena və tribunalardan türk xalqlarının səsi bütün dünyaya çatdırılır.

Heydər Əliyev nitqinin gücü və qüdrəti onun səmimiyyətində idi. Hər şeyi açıq danışardı. Çatışmazlıqları da, nöqsanları da. Aradan qaldırılması üçün iclasda əyləşən məmurlara ciddi tapşırıqlarını da verirdi. Elə bu səmimiyyətinə görə də xalq tərəfindən sevilirdi".

Natiq Ulu Öndərin çıxışlarından gətirdiyi çoxsaylı sitatlarla onun nitqinin nə qədər zəngin, təsirli və xalq tərəfindən sevilən olmasından da söhbət açıb.

Universitetin Gənclər Təşkilatının sədri Məhəmməd Məmmədov Ulu Öndərin Azərbaycan gəncliyi üçün yaratdığı şərait, onlara göstərdiyi etimad, inam və qayğı barədə çıxış edib, həmin gəncliyin işğal altındakı torpaqlarımızı Vətən müharibəsində qəhrəmanlıqla azad etdiyini vurğulayıb.

İctimai səhiyyə fakültəsinin tələbəsi Səma Əlizadə isə Leyla Əliyevanın babası Heydər Əliyevə həsr etdiyi "Elegiya" şeirini məharətlə səsləndirib. Bundan sonra Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən sənədli film nümayiş olunub. Tələbəmizin ifası və sənədli film tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Tədbirdə ATU-nun Tərbiyə işləri üzrə prorektoru, dosent Zülfüqar Musabəyov da iştirak edirdi.

# İmtahan nəzarətçiləri təlimatlandırılıb

## Professor Sabir Əliyev: "Daxili nizam-intizam qaydalarına yüksək dərəcədə riayət edilməlidir"

**Mayın 11-də Azərbaycan Tibb Universitetində tədris ilinin qarşıdan gələn yay imtahan sessiyasına dair imtahan nəzarətçiləri ilə görüş keçirilib. Görüşdə çıxış edən ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev bildirib ki, imtahandan əvvəl nəzarətçilərlə görüş keçirmək artıq bir ənənəyə çevrilib.**



Bu görüşlərin əsas məqsədi imtahanların şəffaf və problemsiz şəkildə keçirilməsi ilə yanaşı, həm də mövcud çatışmazlıqların vaxtında öyrənilib aradan qaldırılmasıdır: "Burda uzun illərdir imtahanlara nəzarət edən şəxslər iştirak edir. Hesab edirəm ki, onların əksəriyyəti qaydalarla yaxından tanışdır. Lakin bununla yanaşı, nəzarət qrupuna yeni daxil olanlar da var. Onlar da yaxşı təlimatlandırılmalıdır ki, bu kampaniyada fəal iştirak edə bilsinlər və imtahan prosesində problemlər yaranmasın. Bildiyiniz kimi, fəal nəzarətçilərə bir sıra imtiyazlar və güzəştlər də olunur ki, onlar öz işlərinə daha da məsuliyyətlə yanaşsınlar. İmtahana nəzarət etdikləri gün çalışdıqları kafedrada işdən azad olunurlar. Bu işin əsas mahiyyəti bütün nəzarətçilərdən hədsiz diqqət tələb etməsidir. Nəzarətçilərin ən birinci vəzifəsi tələbələri öz yerində düzgün əyləşdirməkdir. Çünki iki tələbə eyni fəndən imtahan verərsə, yanaşı düşməməlidir. Və yaxud nəzarətçi imtahan başlayandan sonra tələbənin heç bir vasitədən istifadə etmədiyinə əmin olmalı, imtahan zamanı başqasının səhifəsinə baxmadığını izləməlidir. Nəzarətçinin imtahana gecikməsi, imtahan zamanı telefonla məşğul olması və bu kimi başqa hərəkətlər yolverilməzdir. O cümlədən, tələbələrə qarşı kobudluq hallarına yol verilməməli, yoxlama yüksək nəzakətlə aparılmalıdır. Bir sözlə, nəzarətçilər işin tələblərinə uyğun olaraq daxili nizam-intizam qaydalarına yüksək dərəcədə riayət etməlidirlər".

İmtahan Mərkəzinin müdiri Ülkər Cəfərova yay imtahan sessiyasına hazırlıq işləri barədə məlumat verib və bəzi kafedraların test suallarını vaxtında İmtahan Mərkəzinə təqdim etmədiklərini deyib. Bu cür halların onların ümumi işini ləngitdiyini diqqətə çatdırıb.

İmtahan Nəzarət Qrupunun rəhbəri Pəri İsaqova isə çıxışında bəzi nəzarətçilərdən narazılığını dilə gətirib. O, imtahan zamanı bəzi nəzarətçilərin üzərinə düşən vəzifələrə biganə yanaşdığını qeyd edib və onları ayıq-sayıq olmağa çağırıb.

Sonda professor S.Əliyev dekanlara və nəzarətçilərə lazımi göstəriş və tövsiyələrini çatdırıb.

Görüşdə imtahanların gedişində fəallıq göstərən bir qrup nəzarətçiyə sertifikatlar təqdim olunub.

# "Davamçı Gənclərin İkinci Forumu" keçirilib

**Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, "Davam" Gənclər Hərəkatının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Davamçı Gənclərin İkinci Forumu" keçirilib. Tədbirdə ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Qoşqar İsmayılov da iştirak edib.**



Əvvəlcə Ümummilli Liderin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub və Dövlət Himni səsləndirilib.

Forumda Ulu Öndərin rəhbərliyi dövründə Azərbaycan Respublikası Prezidentinin Katibliyinə rəhbərlik etmiş tarix elmləri doktoru, professor Dilarə Seyidzadə, Prezident Administrasiyasının məsul əməkdaşı Sahil Məmmədli, Gənclər Fondunun icraçı direktorunun müavini Qədir Xəlilov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədr müavini Samir Hümbətov, Agentlik yanında İctimai Şuranın sədri Fərhad Qaraşov, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədr müavini Rüfət Cavadov, "Davam" Gənclər Hərəkatının İdarə Heyətinin sədri Nihad Allahyarlı, Hərəkatın katiblik üzvləri, ictimai xadimlər, gənc iş adamları, gənclər təşkilatları, ali təhsil müəssisələri və media nümayəndələri, o cümlədən 500-dən çox gənc iştirak edib.

Tədbir zamanı Ulu Öndərin əziz xatirəsi yad edilib, Hərəkatın ölkə gənclər siyasətində oynadığı rol, görülən işlər, hədəf və perspektivlərdən bəhs olunub.

Çıxışlardan sonra ötən il ərzində "Davam" Gənclər Hərəkatının sıx əməkdaşlıq etdiyi ali təhsil müəssisələri və Hərəkatın fəaliyyətində aktiv iştirak edən gənclərin təltifolunma mərasimi keçirilib. Təltif olunanlar arasında Azərbaycan Tibb Universiteti də var.

Forumun yekununda "Enerjini paylaş" devizi ilə qala gecəsi baş tutub. Qala gecəsində müğənni Fərid Mərdin iştirakı ilə konsert proqramı təşkil olunub, ardınca isə DJ Zülfüqar Hüseynovun müşayiəti ilə gənclərin zövqünü oxşayan mahnıların sədası altında əyləncəli və maraqlı anlar yaşanıb.

# Tədris Cərrahiyyə Klinikasında ciddi dəyişikliklər aparılır

## Klinikanın direktoru ATU-nun Böyük Elmi Şurasında hesabatla çıxış edib

**ATU-nun Böyük Elmi Şurasının mayın 2-də keçirilən növbəti iclasını universitetin Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev açıb. Əvvəlcə bu günlərdə dünyasını dəyişən II Uşaq xəstəlikləri kafedrasının professoru, Əməkdar elm xadimi, respublikanın əməkdar həkimi, Tədris Terapevtik Klinikanın sabiq direktoru Surxay Musayevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**



Bundan sonra gündəlikdə duran məsələlər diqqətə çatdırılıb və "Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında tədris və müalicə işlərinin vəziyyəti və qarşıda duran vəzifələr" barədə klinikanın direktoru, dosent Mücahit Avcılın hesabatı dinlənilib.

Klinikada 200 gün müddətində görülən işlər haqqında şura üzvlərinə məlumat verən M.Avcıl, inkişafa nail olmaq üçün ilk növbədə xəstəyönümlü iş vərdişinin yaradılmasını hədəf seçdiklərini bildirib: "Eyni zamanda həkimlərin işlərini görə bilmələri üçün avadanlıq və cihazlarla təchizat yüksək səviyyədə olmalı, ədalətli bölgü əsasında əməkhaqqı qaldırılmalı idi. Bundan əlavə, bir tədris klinikası olaraq təlimlərə, tələbə və rezidentura təhsili ilə bağlı xidmətlərə xüsusi diqqət yetirdik. Klinikadakı problemlər çözüldü. Bir illik fəaliyyət planı hazırladıq. İlk 100 gündə təməl məsələlərlə bağlı düzəlişlər aparıldı. Sonra üzdə olan məsələlər - işçilərin maaşlarının qaldırılması, təlim çalışmaları, sonrakı 3 ayda isə təcili yardımın yaradılması kimi daha böyük projelərlə məşğul olduq. Dərhal düzəliş edilməsə, klinika fəaliyyətini dayandıra bilərdi və ya ciddi böhranlara səbəb ola biləcək vəziyyət yaranardı. Təməl məsələlərə sterilizasiya işindən başladıq. Cihazlarımızı içəri aldıq və indi sterilizasiya sahəsində çalışan 5 cihazımız var".

Kliniki fəaliyyətdə texniki imkanların rolundan danışan məruzəçi, bu istiqamətdə görülən işlərin əhəmiyyətini vurğulayıb. O, klinikanın ürəyi hesab edilən əməliyyatxananın da yeniləndiyini deyib: "Tədris Cərrahiyyə Klinikasında olan 18 əməliyyat otağının çoxunda problemlər vardı. Həmin problemləri aradan qaldırmağa çalışdıq, 5 yeni aspirator və digər cərrahi alətlər aldıq, əməliyyat masaları təmir olundu. Nəticədə əməliyyatxananı 3 ay ərzində işlək hala gətirdik. Eyni zamanda, Anju otağına kondisionerlər quraşdırıldı. Çünki cihazın hər zaman işləməsi üçün otaq soyuq olmalıdır. Bahalı olmasına baxmayaraq, Anju aparatını işlək vəziyyətdə saxlamaq üçün şüa borusu da alındı".



M.Avcıl klinikada işçilərin maaşlarını artırmaq istiqamətində görülən işlərə də toxunub. Qeyd edib ki, işçinin 300 manat civarında olan maaşı yanvar ayından 500-550 manata qaldırılıb: "Həmçinin böyük bir şöbədə çalışan işçinin maaşına 70 manat əlavə olunur. Əməliyyat blokunda çalışan hər tibb bacısına 930 manat maaş və əməliyyat sayına görə bonus verilir. Həkimlərimizin maaşları da mərhələli şəkildə artırılır".

Onun sözlərinə görə, klinikada ən zəruri məsələlərdən biri də infeksiyaya nəzarətdir. Bunun üçün infeksion tibb bacısı təyin edilib və infeksiya komissiyası yaradılıb.

Xəstəxanaların yanğın və digər fəlakətlər baxımından yüksək riskli müəssisələr olduğunu söyləyən M.Avcıl, profilaktik məqsədlə mülki müdafiə təlimlərinin keçirilməsindən də söz açıb.

Müasir tibbi avadanlıqlarla təchizat yaxşılaşdıqca, gündəlik xəstə sayının da artdığını bildirən klinikanın direktoru deyib ki, 16 yeni koter cihazı alınıb, oksigen sistemi bərpa edilib: "Ürək-damar əməliyyatlarını dayandırmamaq üçün vacib olan motorlar təmir edildi. 5 ədəd Mindray markalı monitor istiqrazı alınaraq şöbəyə təhvil verildi. Kardiologiya şöbəsinin xəstələri limitdən çox olduğuna görə, bu cihazlar xəstələri izləmək və xəstə ölümünün qarşısını almaq üçün şöbəyə lazım idi. Şöbə əlavə olaraq EKG cihazı ilə də təmin edildi. Həmçinin iki defibrilator və bir CBAP cihazı alınaraq ehtiyac olan şöbələrə yerləşdirildi".

Çıxışında beynəlxalq əlaqələrə də diqqət çəkən M.Avcıl, klinikada çox önəmli konfranslara, təlimlərə əlverişli şərait yaradıldığını vurğulayıb. "Avadanlıqları düzəltdik, işçilərin maaşlarını qaldırdıq, yeni cihaz və alətlər aldıq, təlimlər keçdik, keyfiyyət çalışmaları apardıq və təhlükəsizlik tədbirləri gördük. Bu təqdimatı etmək hüququnu mənə verdiyi üçün rektor, professor Gəray Gəraybəyliyə təşəkkür edirəm. Amma təqdimatda bir çətinlik var idi. Çətinlik 3 ilin işini 3 ayda görmək deyil, 20 dəqiqədə izah edə bilməkmiş" – deyə klinikanın direktoru hesabat məruzəsini yekunlaşdırıb.

Məruzə ətrafında çıxış edən Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının müdiri, professor Vəfa Pənahian 3 ay müddətində klinikanın müalicə işləri üzrə direktor müavini işlədiyini xatırladıb. Bu nöqteyi-nəzərdən klinikada görülən işlərlə bağlı daha çox məlumatlı olduğunu bildirib və xəstə sayının çoxalmasını bu işlərin müsbət göstəricisi kimi qiymətləndirib. Eyni zamanda icbari tibbi sığortanın imkanlarından daha çox istifadə edilməsi və tədris klinikası olması nəzərə alınmaqla, vergi güzəştlərinin tətbiq olunması təkliflərini irəli sürüb.

Şüa diaqnostikası və terapiyası kafedrasının müdiri, professor Məlahət Sultanova bugünkü Elmi Şurada müzakirə olunan məsələnin universitetin ən prioritet istiqamətinə - kliniki fəaliyyətə həsr olunduğunu, arqumentlərə söykənən bir hesabat dinlədiklərini söyləyib. Klinikanın Radiologiya şöbəsində görülmüş işlər, mövcud problemlər haqqında fikirlərini bölüşərək bildirib ki, gündəlik prosedurları maksimal səviyyədə yerinə yetirməyə çalışırlar: "Uzun müddət idi ki, işləməyən və yaxud fasilələrlə işləyən MRT cihazı artıq tam gücü ilə fəaliyyətdədir. KT müayinəsi də tələbata uyğun həyata keçirilir. Təbii ki, yeni avadanlıqlar da gözləyirik. Şöbəmizdə 24 rezident təhsil alır. Təyinatları ilə, iş yerləri ilə maraqlanırıq. Onların aparıcı klinikalarda yaxşı mütəxəssis kimi çalışmalarından məmnunuq. Düşünürəm ki, mürəkkəb cərrahi əməliyyatların icra olunduğu klinikamızda İnvaziv radiologiya şöbəsinin açılması da zəruridir".

Neyrocərrahlıq kafedrasının müdiri, dosent Rövşən Xəlilzadə də hesabatda vacib məqamların öz əksini tapdığını diqqətə çatdırıb: "Mənim çalışdığım sahə texnologiyanın ən dərindən nüfuz etdiyi sahələrdən biridir. Daha çox avadanlığa ehtiyacımız var. Ümidvaram ki, yaxın zamanlarda cərrahi mikroskopumuz da olacaq". R.Xəlilzadə istər diaqnostik çalışmalar, istərsə də müalicə proseslərində müəyyən irəliləyişlərin olduğunu söyləməklə yanaşı, klinikada geniş tərkibdə məsləhət şurasının yaradılmasını təklif edib.

Məruzə və çıxışlarda səslənən fikirləri yekunlaşdıran prorektor Sabir Əliyev hesabatda klinikanın fəaliyyəti, tədris prosesi, eləcə də digər məsələlərlə bağlı ətraflı məlumat verildiyini vurğulayıb: "Məruzədən də hiss olundu ki, başlanğıc yaxşıdır. Ancaq aparılan işlər davamlı olmalıdır. Xatırlayıram ki, Terapevtik və Cərrahiyyə klinikaları fəaliyyətə başlayan zaman hamımızda bir məmnunluq hissi vardı. Çox təəssüf ki, sonrakı dövrlərdə müəyyən problemlər yarandı. Unutmamalıyıq ki, klinikaların fəaliyyətində ən önəmli məsələ tədris və təlim prosesinin hansı səviyyədə aparılması ilə bərabər, tibbi bacarıqların hansı səviyyədə öyrədilməsidir".

Professor S.Əliyev yekun nitqində ən qabiliyyətli, ən savadlı tələbələrimizin, məzunlarımızın xarici ölkələrə üz tutmasından təəssüfləndiyini də dilə gətirib: "Bu baxımdan bizim üzərimizə böyük məsuliyyət düşür. Çünki onlar gələcəyin yüksək səviyyəli kadrları kimi ölkəmizdən gedirlər. Biz tədris və təlim prosesində bir vətəndaş kimi onları elə hazırlamalıyıq ki, öz xalqına, öz vətəninə xidmət etmək niyyətində olsunlar".

Sonuncu kurs tələbələrinin dərsə davamiyyəti, bəzi müəllimlərin dərsə vaxtında başlamaması və xarici tələbələrin şikayətləri ilə bağlı məsələlərə münasibət bildirən prorektor, sığorta və vergi güzəştləri haqqında səslənən fikirlərə də aydınlıq gətirib.

Hesabat məruzəsinin müzakirəsindən sonra dərslik, dərs vəsaitləri, metodik vəsaitlərin nəşrinə razılıq verən Elmi Şura sonda elmlər doktoru işlərinin mövzusunu və elmi məsləhətçisini, elmi adları təsdiqləyib.

**Arif MƏMMƏDLİ**

## Əməkdaşlarımız beynəlxalq konqresdə Azərbaycanı təmsil edib

**Aprelin 27-29-da Özbəkistan Respublikasının Səmərqənd şəhərində Asiya Endoskopik və Laparoskopik Cərrahiyyə Cəmiyyətinin (ELSA) "İpək Yolu boyu Minimal İnvaziv Cərrahiyyə" adlanan 1-ci Yaz Konqresi keçirilib. Konqresdə Yaponiya, Çin, Honq-Konq, BƏƏ, Oman, Hindistan, Banqladeş, Pakistan, Cənubi Koreya, Səudiyyə Ərəbistanı, Türkiyə, Sinqapur, Malayziya, Filippin, Rusiya, Azərbaycan, Tacikistan, Qırğızıstan, Qazaxıstan və Özbəkistandan mütəxəssislər iştirak edib.**



Tədbirin proqramına Səmərqənd Tibb Universitetinin İxtisaslaşdırılmış Uşaq Cərrahiyyəsi Klinikasının bazasında müxtəlif ölkələrdən olan cərrahların endoskopik cərrahiyyənin əsas bölmələri üzrə ustad dərsləri, seminarları daxil edilib.

Konqresin açılışında Özbəkistanın səhiyyə naziri və Səmərqənd vilayətinin hakimi, o cümlədən ELSA-nın prezidenti Filip Çiu, baş katib Davide Lomanto və Yaz Konqresinin prezidenti Cəmşid Şəmsiyev çıxış ediblər. Konqresin işinə canlı olaraq 500, onlayn rejimdə isə 600-ə yaxın şəxs qatılıb.

Ümumilikdə 11 bölmə üzrə 97 məruzə dinlənilib, panel iclaslarında 67 elmi iş təqdim olunub.

Konqresdə Azərbaycanı ATU-nun Uşaq cərrahlığı kafedrasının müdiri, professor Ramiz Poluxov, assistentlər Murad Əlibəyov, Binnət Sofuyev və doktorant Mahmud İsmayılov təmsil ediblər.

ELSA tərəfindən formalaşdırılmış münsiflər heyətinin qərarı ilə ən yaxşı iki məruzə mükafatlandırılıb. Sevindirici haldır ki, bu iki işdən biri professor Ramiz Poluxovun "Uşaqlarda Hirşprunq xəstəliyinin minimal invaziv cərrahi müalicəsinin nəticələri" mövzusunda məruzəsi olub.

Konqres başa çatdıqdan sonra əməkdaşlarımıza ELSA-nın üzvlük sertifikatları verilib. Həmçinin konqres çərçivəsində Səmərqənd Tibb Universitetinin İxtisaslaşdırılmış Uşaq Cərrahiyyəsi Klinikası ilə ATU-nun Tədris Cərrahiyyə Klinikası arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

Gərgin iş qrafikinə baxmayaraq, konqres iştirakçılarının şəhərin tarixi yerlərinə ekskursiyaları da təşkil olunub.

# Cəmiyyətin sütunu – ailə institutu

## 15 May - Beynəlxalq Ailə Günü Azərbaycanda da geniş qeyd olunur



**BMT Baş Assambleyasının qətnaməsinə müvafiq olaraq, 1994-cü ildən etibarən hər il 15 may dünyada Beynəlxalq Ailə Günü kimi qeyd olunur. Azərbaycan bu ənənəyə 2008-ci ildən qoşulub. Bu əlamətdar gün olduqca əhəmiyyətli dəyərləri özündə birləşdirməklə, dünya miqyasında bütün insanların diqqətini ailələrə və onların problemlərinin həllinə yönəldir.**

Ailə cəmiyyətin əsas elementi kimi başəri dəyərlərin, mədəniyyətin və nəsillərin davamlılığını təmin edən sabitlik və inkişaf amilidir. Buna görə də hər bir dövlətin əsas vəzifəsi cəmiyyətdə firavan, uğurlu, mənəvi-əxlaqi prinsiplərə söykənən ailə modelini formalaşdırmaqdır.

"Ailə xüsusi, mürəkkəb insan münasibətləri aləmidir. Burada böyük bir nəzakət, həssaslıq, şəxsiyyətin ləyaqətinə, ailənin mənafeyinə hörmət və ehtiram lazımdır",- deyən Ümummilli Lider Heydər Əliyev ölkəmizdə ailə siyasətinin formalaşdırılmasına böyük əhəmiyyət verirdi.

Ailə problemlərinin əksəriyyəti sosial-məişət və tibbi xarakterlidir. Bunlara ailə üzvlərinin qarşılıqlı münasibəti, onların yaşayış şəraiti, valideyn-övlad məsuliyyəti, ailələrin maddi təminatı, reproduktivliyin təminatı, xəstəlik, ailə üzvünün itirilməsi, uşaqların sağlamlığının formalaşması, psixi pozğunluqlar və bir çox başqa məsələlər daxildir. Bu problemlər içərisində hər bir ailə üzvünün sağlamlığına aid olan məsələlər xüsusi yer tutur. İnsanlar yaşadıqları hər bir mühitdə onların ehtiyaclarına diqqətlə yanaşacaq, davamlı münasibət qura biləcək təcrübəli həkim arzulayır, fərdi xüsusiyyətləri və yaşayış şəraiti nəzərə alınmaqla, sağlam həyat tərzinin formalaşmasına dair məsləhətlər almaq istəyir, buna can atırlar. Əhalinin bu tələblərinə cavab verən ailə həkimi bütün sağlamlıq problemləri ilə və eyni zamanda xəstəliyə deyil, insana hədəflənmiş şəkildə məşğul olur, xəstəlikləri erkən mərhələdə aşkarlamağa çalışır, patologiyanın xronikləşməsinin, daha ağır mərhələyə keçməsinin qarşısını alır. Həmçinin konkret şikayəti olmayan, sağlam hesab edilən əhali ilə də iş aparır, insanın həyat potensialının yüksəlməsinə və ömrünün uzanmasına yönələn profilaktik proqramları tərtib edir.

Əhalinin reproduktiv sağlamlığının müdafiəsi milli təhlükəsizlik məsələsidir və sağlam uşağın doğulması, sağlam nəslin yetişdirilməsi ümumbəşəri məsələlərin əsas prioritetlərindəndir. Reproduktiv sağlamlıq və ailə planlaşdırmasında da ailə həkimi ilk müraciət edilən həkimdir. Ailə problemlərinin həllində ailə həkimi mərkəzi yer tutur. Onun timsalında insanlar yalnız həkim deyil, həm də tibbi vəkil, sosioloq, müasir dövrdə tibbi menecer qazanmış olur.

Ölkəmizin bütün sahələrdə əldə etdiyi uğurlar ailə institutunun inkişafında da öz təsdiqini tapmaqdadır. Bu gün Azərbaycanda Beynəlxalq Ailə Gününün qeyd olunmasının ənənəyə çevrilməsi məhz dövlətin beynəlxalq əməkdaşlıq prinsiplərini əsas tutaraq, bu sahəyə göstərdiyi xüsusi diqqət kimi qəbul edilə bilər.

**İbrahim İsayev,**
*Ailə təbabəti kafedrasının müdiri, əməkdar elm xadimi, professor*

**İmkansız yataq xəstəsi, 1987-ci il doğumlu Vüsal Bəylərov bu günlərdə ATU-nun Tədris Cərrahiyyə Klinikasının həkim-nevroloqu Yeganə Rəşidovaya müraciət edib. Klinikanın rəhbərliyi xəstənin maddi vəziyyətini nəzərə alaraq, bütün müayinə və müalicə xərclərini öz üzərinə götürüb.**

# Təmənnasız müalicə edilən imkansız xəstə kritik vəziyyətdən çıxıb



Müalicə həkimi Y.Rəşidova ilk növbədə gənc və arıq bir adamda insult probleminin nədən qaynaqlandığını müəyyən etməyə çalışıb. Onun sözlərinə görə, əvvəlcə problemin ürəklə əlaqədar ola biləcəyini düşünüb. Çünki praktikada da səyrici aritmiyanın insultla nəticələnməsi hallarına rast gəlinir. Diaqnozu dəqiqləşdirmək üçün qısa müddətdə EKQ, EXO, baş-beynin MRT-si, qarın boşluğunun USM-si və dopler müayinəsi, eləcə də qan analizləri aparılıb. Nəticədə baş-beynin böyük bir zədəsi aşkarlanıb və xəstəyə BQDKP - işemik insult, aşağı ətrafların paraparezi diaqnozu qoyulub. Bundan sonra uyğun müalicəyə başlanılıb. Bir neçə gündən sonra isə fizioterapiya prosedurları həyata keçirilib. Artıq müalicənin 8-ci günü xəstənin barmaqlarında, 9-10-cu günü isə ayaqlarında hərəkətlilik baş verib. Xəstə müalicəsinin 11-ci günündən başlayaraq köməkçi vasitələrlə kiçik addımlar atıb.

Klinikanın direktoru Mücahit Avcıl və baş həkim Fariz Camalov kritik vəziyyətdən çıxaraq qismən sağlamlığına qovuşan xəstəyə baş çəkiblər. Xəstə yaxınları effektiv müalicəyə və onlara göstərilən qayğıya görə həkim-nevroloq Yeganə Rəşidovaya, klinikanın rəhbərliyinə təşəkkürlərini bildiriblər.

Protokola uyğun müalicə başa çatdıqdan sonra xəstə evə yazılıb. Amma uzunmüddətli reabilitasiyaya ehtiyac olduğundan, müalicənin həkim nəzarəti altında ev şəraitində davam etdirilməsi qərara alınıb.





# Plastik və rekonstruktiv cərrahiyyəyə dair faydalı nəşr

**ATU-nun Tədris Cərrahiyyə Klinikasının Plastik cərrahiyyə rezidentlərinin kuratoru, tibb elmləri doktoru, professor Vaqif Qələndərin plastik və rekonstruktiv cərrahiyyədən bəhs edən "Yumşaq toxumaların kosmetik-funksional rekonstruksiyaları" adlı monoqrafiyası işıq üzü görüb.**

Kitab Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Elmi Şurasının qərarına əsasən çap edilib. 260 səhifədən ibarət nəfis tərtibatla çap olunmuş monoqrafiyaya adıçəkilən institutun rektoru, professor Nazim Qasımov və Azərbaycan Tibb Universitetinin Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimov rəy veriblər.

Məlumat üçün bildirək ki, bu monoqrafiya müəllifin əvvəlki dərslik və dərs vəsaitlərindən sonra plastik cərrahiyyə sahəsində elmi və praktiki olaraq daha da istiqamətverici xarakterlidir. Kitabda yumşaq toxumaların böyük defektlərinin bərpasının müasir üsulları, onların üstünlükləri və çatışmazlıqları təsvir edilib, eləcə də bərpa əməliyyatlarının nəticələrini yaxşılaşdırmaq məqsədi ilə müəllifin yeni rekonstruksiya üsulları ilə bağlı təklifləri öz əksini tapıb. Yeni rekonstruksiya üsulları və yaxud klassik rekonstruksiya üsullarının modifikasiyaları ilə bağlı təkliflər professor V.Qələndərin çoxillik təcrübəsinə və klinik eksperimental tədqiqatlarının nəticələrinə əsaslanır, onların effektivliyi eksperimental təsdiqlənib. Xüsusən, dəri və dərialtı toxuma kompleksindən ibarət olan fleblərlə plastikada qan təchizatına təsir edən amillər araşdırılıb, fleblərdə işemiya və nekrozun profilaktikasında antiaqreqant və antioksidant preparatların effektivliyi öyrənilib, nəticədə dəri və dərialtı toxuma flebləri nekrozunun profilaktikası üçün tədbirlər kompleksi hazırlanıb. Yumşaq toxumaların böyük defektlərinin effektiv kosmetik-funksional bərpası üçün təklif edilmiş yeni modifikasiyalı plastika üsullarının nəticələri klassik üsullarla müqayisəli olaraq qiymətləndirilib.

Qeyd edək ki, ATU-nun tədris proqramı əsasında nəşr olunan bu elmi-praktik monoqrafiya ölkəmizdə plastik cərrahiyyəyə dair geniş mənada yazılan ilk kitabdır. Kitabdan fənnin tədrisi ilə məşğul olan professor-müəllim heyəti, rezidentura mərhələsində təhsil alan gənc həkimlər və bu sahənin tədqiqatçıları istifadə edə bilərlər.

# Əməkdaşımız immunlaşdırma kampaniyası tədbirlərində yaxından iştirak edib



**Avropa İttifaqının maliyyə dəstəyi ilə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və BMT-nin Uşaq Fondu (UNICEF) 24-29 aprel - Avropa İmmunlaşdırma Həftəsi çərçivəsində peyvəndlərlə əhatə dairəsi aşağı olan 4 rayonda maarifləndirmə xarakterli silsilə tədbirlər təşkil edib.**

ÜST və UNICEF tərəfindən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin birgə əməkdaşlığı ilə reallaşan tədbirlər "Peyvəndin vaxtını gecikdirmə! Hər doza vacibdir!" şüarı altında təşkil edilib.

Kampaniya çərçivəsində Qobustan, Yevlax, Mingəçevir və Göygöl rayonlarında valideyn konfransları baş tutub. Göygöl və Yevlax rayonlarında keçirilən konfranslarda Azərbaycan Tibb Universitetinin dosenti, Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, APC-nin idarə heyətinin üzvü Nigar Bayramova, Qobustan və Mingəçevirdə isə pediatr A.Ziyadova valideynlərin peyvəndlə bağlı suallarını cavablandırıb. Maarifləndirici söhbətlərdən sonra peyvəndləmədən kənarda qalan xeyli sayda uşaq yerindəcə peyvənd olunub.

Eyni zamanda, adıçəkilən rayonlarda N.Bayramova və A.Ziyadova tərəfindən 150-ə yaxın pediatr və vaksinator üçün peyvəndlə bağlı elmi sübutlara əsaslanan son yeniliklər haqqında təlimlər keçirilib.

İmmunlaşdırma Həftəsi ərzində Göygöl rayonunda təşkil edilmiş sonuncu tədbirdə ÜST-ün Azərbaycandakı nümayəndəsi və ölkə ofisinin rəhbəri dr. Hande Harmancı və rayon rəsmiləri də iştirak ediblər. Göygöl Rayon Mərkəzi Xəstəxanasının direktoru Vasif Əliyev immunlaşdırma kampaniyası ilə bağlı öz fikirlərini belə ifadə edib: "ÜST-ün ən uzaq kəndlərimiz də daxil olmaqla Göygöl rayonundakı bütün vaksinasiya məntəqələrində immunlaşdırma kampaniyasının keçirilməsi üçün göstərdiyi səyləri yüksək qiymətləndiririk. Ümidvaram ki, bu kampaniyanın nəticəsi olaraq, bizim regionun peyvəndlərlə əhatə səviyyəsində irəliləyiş əldə edəcəyik. Çünki valideynlərlə keçirilən görüşlər və paylanılan maarifləndirici materiallar çox faydalı oldu. Peyvəndlə bağlı bir çox yanlış təsəvvürlər aradan qalxdı".

Dr. H.Harmancı isə bildirib ki, uşaqları qorumaq üçün hər şey edilir: "Uşaqlarımıza bütün lazımi peyvəndləri vaxtında vurdurmağımız onları qorumaq üçün edə biləcəyimiz ən yaxşı addımdır. Ümid edirəm ki, immunlaşdırma kampaniyası bu mesajı bütün ailələrə çatdırmağa kömək edir. Biz bütün tərəfdaşlarımızla birlikdə dövrümüzdə insan həyatını xilas edən ən vacib vasitə hesab olunan peyvəndləri təbliğ etməkdə davam edəcəyik".

Xatırladaq ki, kampaniya müddəti boyunca əhali arasında maarifləndirməni gücləndirmək məqsədi ilə sözügedən rayonlarda bütün vaksinasiya məntəqələri uşaq peyvəndləri ilə bağlı çeşidli maarifləndirici materiallarla təmin olunub.

# Görkəmli alim, gözəl insan Surxay Musayev xatirələrdə yaşayacaq

**Azərbaycanın tibb ictimaiyyətinə ağır itki üz verib. Görkəmli alim, Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının professoru, Əməkdar elm xadimi Surxay Novruz oğlu Musayev ömrünün 72-ci ilində vəfat edib.**



S.Musayev 1 fevral 1951-ci ildə Xanlar rayonunun (indiki Samux) Füzuli kəndində anadan olub. 1968-1974-cü illərdə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) Pediatriya fakültəsində təhsil alıb. Təhsil illərində dərs əlaçısı, Tələbə Elmi Cəmiyyətinin fəal üzvü olub və universitetin ictimai həyatında aktiv iştirakı ilə fərqlənib. Universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra Elmi Şuranın qərarı ilə elmi-pedaqoji-tibbi fəaliyyətlə məşğul olması üçün Hospital pediatriya (indiki Uşaq xəstəlikləri) kafedrasında saxlanılıb. O, 1985-ci ildə Moskva şəhərində SSRİ Tibb Elmləri Akademiyasının Elmi-Tədqiqat Pediatriya İnstitutunda tibb elmləri namizədi, 1992-ci ildə isə İ.M.Seçenov adına Moskva Tibb Akademiyasında tibb elmləri doktoru alimlik dərəcəsi alıb. 1986-cı ildə I Uşaq xəstəlikləri kafedrasının dosenti, 1992-ci ildə isə həmin kafedranın professoru vəzifəsinə seçilib.

Professor S.Musayev respublikada və bir çox xarici ölkələrdə çap olunmuş 150-dən çox elmi əsərin, o cümlədən dərs vəsaitlərinin, metodik tövsiyələrin və monoqrafiyanın müəllifidir. Onun elmi istiqaməti çoxşaxəlidir. O, pediatriyada ilk dəfə olaraq birləşdirici toxumanın diffuz xəstəliklərinə məruz qalmış uşaqların həzm sistemini müasir üsullarla tədqiq edib və bu sistemə daxil olan orqanların zədələnmə mexanizminin yeni konsepsiyasını verib.

Surxay müəllim elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, ölkəmizin və universitetimizin ictimai həyatında da daim xüsusi fəallıq göstərib. O, 1994-2010-cu illərdə Universitet Həmkarlar İttifaqı Komitəsinə rəhbərlik edib, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının Ali Məclisinin və Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Rəyasət Heyətinin üzvü olub.

Professor S.Musayev Azərbaycan Pediatrlar Assosiasiyasının vitse-prezidenti, Türkdilli ölkələrin Pediatrlar Assosiasiyasının üzvü idi. O, 2010-cu ildən 2016-cı ilədək və 2020-ci ildən ömrünün son günlərinədək ATU-nun Tədris Terapevtik Klinikasının direktoru vəzifəsində çalışıb. Professor Surxay Musayevin xidmətləri dövlətimiz tərəfindən həmişə yüksək qiymətləndirilib və o ən mötəbər mükafatlara layiq görülüb.

Bu illər ərzində işgüzar, obyektiv və nəcib insan kimi doğma kollektivin dərin hörmətini qazanan, mənalı və şərəfli ömür yolu keçən Surxay müəllimin işıqlı xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

**Allah rəhmət eləsin!**

**ATU-nun rektorluğu və kollektivi**

# Şəfqət mələkləri

## Mayın 12-si Beynəlxalq Tibb Bacısı Günü idi

**Tibb bacısı işinin tarixi bu fədakar peşəyə özünü həsr etmiş məşhur adlarla zəngindir. Bunlardan ən tanınmışı Florens Naytingeyldir. F.Naytingeyl tibb bacısı ixtisası və hospitallarda islahatın təşəbbüsçüsü kimi tarixə öz adını yazıb. O öz missiyasını insanlara xidmətdə, onları xəstəliklərdən, ölümdən qurtarmaqda görürdü.**



1853-1856-cı illərdə Krım savaşında gecə-gündüz əsgərlərə qayğı göstərdiyinə görə əsgərlər ona Çıraqlı qadın adını vermişdilər. Bütün işçi həyət axşam evlərinə getdiyində, o, əlindəki çıraqla xəstəxananı gəzərək yaralılara nəzarət edirdi. "The Times" qəzetində ona baxıcı mələk adı verilmiş və "bütün xəstəxananın divarlarında onun siluetinin olduğu" yazılmışdı.

1974-cü ildən etibarən mayın 12-si (Florens Naytingeylin ad günü) hər il Beynəlxalq Tibb Bacısı Günü kimi qeyd olunur. Azərbaycanda da adını səhiyyə, tibb bacısı peşəsi tarixinə qızıl hərflərlə yazmış şəxslər az deyil. İlk azərbaycanlı şəfqət bacısı general Əliağa Şıxlinskinin həyat yoldaşı Nigar Hüseyn Əfəndi qızı Şıxlinskaya olub. O, Birinci dünya müharibəsi başlayanda yaralı əsgərlərə tibbi yardım üçün yaradılan Qırmızı Xaç Cəmiyyətinin sədri seçilib. Onun başçılıq etdiyi xəstəxana məşhurlaşaraq "Şıxlinski xəstəxanası" kimi tanınıb. O, həmçinin 1914-cü ildə yaradılan Qadın Xeyriyyə Cəmiyyətinə də rəhbərlik edib. 1920-ci ildə Əliağa Şıxlinskinin və Fətəli Xan Xoyskinin təşəbbüsü ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti təsis edilib və Nigar Şıxlinskaya həmin Cəmiyyətin "Şəfqət xidməti"nin təşkilatçısı olub.

Tibb bacılarının həyatımızda əvəzolunmaz rolunu vurğulamaq üçün bu peşə üzrə fədakar fəaliyyət göstərən və xüsusi fərqlənənlər üçün "Florence Nightingale" medalı təsis edilib. Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən Cenevrədə keçirilən "Florence Nightingale" medalının təltifetmə mərasimində 18 ölkədən 25 tibb bacısı həmin medala layiq görülüb. Medala layiq görülənlər arasında 2020-ci il Vətən müharibəsinin yeganə şəhid qadını Arastə Baxışova da var.

Mövzu ilə bağlı "Təbib" qəzetinə danışan **ATU-nun İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva** bildirib ki, 50 ildən çoxdur Şimali Amerika, Avropa ölkələrində, Avstraliya və Yaponiyada alı təhsilli (bakalavr) tibb bacılarının hazırlanması uğurla tətbiq olunur. ÜST-ün ekspert komitəsinin tövsiyələrinə uyğun olaraq, ali təhsilli tibb bacıları bu ixtisasda fəaliyyət göstərənlərin ümumi sayının ən azı 10%-ni təşkil etməlidir. Bütün bunlar müasir dövrün tələblərindən irəli gəlir. XXI əsrin tibb bacısı öz peşə vəzifələrini yerinə yetirməyə hazır olmaqla yanaşı, həm də tibbdə innovativ dəyişikliklərə tez uyğunlaşmaq qabiliyyətinə malik olmalı və qrup lideri kimi fəaliyyət göstərməyi bacarmalıdır. Tibbi komandanın koordinatoru olaraq tibb bacısı hər bir xəstənin ehtiyaclarını dəqiq qiymətləndirməli, fərdi baxım planını qurmalı, komanda üzvləri arasında aydın ünsiyyəti təmin etməlidir. Bundan əlavə, elmin sürətlə inkişaf etdiyi dövrdə tibb bacısı tədqiqat aparmaq, bu tədqiqatların nəticələrini əsaslandırmaq və cəmiyyətə təqdim etmək qabiliyyətinə malik olmalıdır. Bunu da yaddan çıxarmaq olmaz ki, tibb bacısı təhsilinin əsas şüarı: "Tibb bacısını tibb bacısı öyrətməlidir!" olduğundan, pedaqoji bacarıqları olan ali təhsilli tibb bacılarına ehtiyac qat-qat çoxalır.

Q.Qəniyevanın sözlərinə görə, təcrübə göstərir ki, ali təhsil tibb bacısının işinin keyfiyyətinə ciddi təsir edir və onun yeniliklərə tez uyğunlaşması üçün zəruridir. "2020-ci ildən etibarən Təhsil Nazirliyinin müvafiq qərarı ilə Azərbaycan Tibb Universitetində "Tibb bacısı işi" ixtisası üzrə təhsil həyata keçirilir. Bu qısa dövr ərzində tibb bacısı ixtisasının tədrisi üçün ATU-nun rəhbərliyi tərəfindən əhəmiyyətli işlər görülüb. Türkiyənin Qazi və EGE universitetlərinin bu sahədə tədrislə məşğul olan mütəxəssisləri ilə sıx əlaqələr yaradılıb və proqramların təkmilləşdirilməsi üzrə treninqlər təşkil edilib. Həmçinin ÜST və digər beynəlxalq qurumlarla səmərəli əməkdaşlıq həyata keçirilir.

Mən bu sahədə çalışanları və bu peşəyə həyatını həsr etməyə hazırlaşan tələbələri bu gün münasibətilə təbrik edirəm. İnanıram ki, onların arasında ölkəmizdə səhiyyə xidmətnin təkmilləşməsinə, əhalinin sağlamlığının yaxşılaşmasına öz töhfəsini verən və beynəlxalq səviyyədə Azərbaycanın adını yüksəldən mütəxəssislər olacaq" – deyə müsahibimiz bildirib.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedraların müdirləri:**

- Onkologiya kafedrası
- Oftalmologiya kafedrası
- II Daxili xəstəliklər kafedrası
- III Daxili xəstəliklər kafedrası
- Epidemiologiya və biostatistika kafedrası
- Əczaçılıq kimyası kafedrası
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası
- Normal fiziologiya kafedrası
- II Cərrahi xəstəliklər kafedrası
- Ailə təbabəti kafedrası
- Tibb və sağlamlıq elmləri təhsili kafedrası

**Kafedraların professorları:**

- Onkologiya kafedrası - 1 yer (0,5 vahid)
- Oftalmologiya kafedrası - 1 yer (0,5 vahid)
- II Daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- III Daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Epidemiologiya və biostatistika kafedrası - 1 yer (0,5 vahid)
- Əczaçılıq kimyası kafedrası - 1 yer (0,5 vahid)
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer (0,5 vahid)
- Normal fiziologiya kafedrası - 1 yer (0,5 vahid)
- II Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Ailə təbabəti kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların dosentləri:**

- Tibb və sağlamlıq elmləri təhsili kafedrası - 1 yer (0,5 vahid)
- Onkologiya kafedrası - 1 yer (0,5 vahid)
- Patoloji anatomiya kafedrası - 1 yer
- II Daxili xəstəliklər kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 1 yer
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Hərbi terapiya kafedrası (HTF) - 1 yer

**Kafedraların assistentləri:**

- Sitologiya, embriologiya və histologiya kafedrası - 1 yer
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer (0,5 vahid)
- Dermatovenerologiya kafedrası - 1 yer (0,5 vahid)
- Məhkəmə təbabəti kafedrası - 2 yer (0,5 vahid)
- Tibb və sağlamlıq elmləri təhsili kafedrası - 2 yer
- Ailə təbabəti kafedrası - 2 yer (0,5 vahid)

**Kafedraların baş müəllimləri:**

- Bioloji kimya kafedrası - 1 yer
- İctimai fənlər kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 3 yer

**Kafedranın müəllimi:**

- Xarici dillər kafedrası - 1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08**

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi (yeni formatda).
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifəyə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatının surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

### Allah rəhmət eləsin!

Farmakologiya, Qidalanma və tibbi ekologiya, Ağciyər xəstəlikləri, Tibbi və bioloji fizika, Sitologiya, embriologiya və histologiya kafedralarının əməkdaşları II Cərrahi xəstəliklər kafedrasının professoru Xaləddin Musayevə qardaşı, əməkdar elm xadimi, professor

**Surxay Musayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əsaslı Kitabxananın kollektivi, Fizioterapiya və tibbi reabilitasiya, II Uşaq xəstəlikləri, Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedralarının əməkdaşları Şüa diaqnostikası və terapiyası kafedrasının dosenti Mətanət Pənahovaya atası, əməkdar elm xadimi, professor

**Surxay Musayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

II Uşaq xəstəlikləri kafedrasının kollektivi kafedranın assistenti, t.ü.f.d. Səfərova İradə Adil qızına anası

**Seyran Qarayevanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Tibbi və bioloji fizika kafedrasının əməkdaşları kafedranın dosenti Nüsrəddin Əliyevə bacısı

**Əsmayə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başlağlığı verirlər.

---

Xarici dillər kafedrasının əməkdaşları kafedranın müdiri, professor Zemfira Məmmədovaya qardaşı

**Əliheydər Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başlağlığı verirlər.

---

Allerqologiya və immunologiya kafedrasının əməkdaşları kafedranın dosenti

**Abdulla Fərəməzovun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başlağlığı verirlər.

---

Biokimya kafedrasının əməkdaşları kafedra nəzdində elmi-tədqiqat laboratoriyasının böyük elmi işçisi Gülnarə Cəfərovaya anası

**Zümrüd xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başlağlığı verirlər.

---

Biokimya kafedrasının əməkdaşları kafedranın dosenti Mahirə Əmirovaya əzizi

**Xədicə Elşən qızının**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başlağlığı verirlər.

**Etibarsız sayılır**

Vahid Hosseinzadeh (qrup 418A1b) tələbə bileti, Şeyma Çiftci Abdullatif (qrup 418A6b); Sina Ghorani Gholamhassan (tələbə kontingetində qalan məzun) və Murat Siper Mehmet Garipin (qrup 317A11) müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0009
Sayı 800